AZƏRBAYCAN RESPUBLİKASI

TƏHSİL NAZİRLİYİ

**Bakı İdarəetmə və Texnologiya Kolleci**

# Azərbaycan dili və nitq mədəniyyəti fənninin iş planı

**(SİLLABUS)**

**Müəllim:** **Ələsgərova Nəzifə Mansur qızı**

**Qrup:T.166**

**Bakı – 2020**

# “Azərbaycan dili və nitq mədəniyyəti”

fənninin

# PROQRAMI

Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı İdarəetmə və Texnologiya Kollecinin Metodiki şurasının 20 may 2019-cu il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir.
( Protokol № 4 )

## 1.Müəllim haqqında məlumat

**Soyadı:** Ələsgərova

**Adı:** Nəzifə

**Atasının adı:** Mansur

**Təhsili:** ali

**Vəzifəsi:** müəllim

**Dərəcəsi:**

**Tel(mob):** 051 837 00 53

**Gün ərzində kollecdə olduğu vaxt:** $08^{30}$ – $16^{00}$

**Xarici dil:**

## 2.Fənn haqqında məlumat

**Fənnin kodu**: HF – BO3

**Fənnin növü:** Humanitar

**Fənnin tədris ili:** 2020/2021 (I semestr)

**Auditoriya:** №

**Fənnin krediti:** 6

**Fənnin tədris yükü (saat):** 90

**Fənnin prerekviziti:** **Fənn proqramı,mövzu-təqvim planı**

**Fənnin tədris forması:** distant məşğələ

## 3.Fənnin əsas məqsədi

Nitq mədəniyyəti Azərbaycan dilinin qayda-qanunlarını, incəliklərini, özünəməxsus xüsusiyyətlərini öyrənmək üçün zəmin yaradır. Belə ki, dilçiliyin praktik sahəsi olan "Azərbaycan dili və nitq mədəniyyəti" danışıq və yazı zamanı orfoepik və orfoqrafik qaydalara, qrammatik qayda-qanunlara, üslub normalarına əməl etmək, zəngin söz ehtiyatına malik olmaq, nitqin etik normalarını gözləməkdir.

"Azərbaycan dili və nitq mədəniyyəti" fənninin tədrisi istər yazılı, istərsə də şifahi nitqin inkişafında tələbələr üçün yollar, perspektivlər açır.

Bu fənnin tədrisinin əsas məqsədi tələbələrin nitqini inkişaf etdirməkdən ibarətdir. Düzgün tədris prosesi tələbələrə yalnız düzgün danışmaq bacarığı deyil, həm də düzgün yazmaq vərdişləri aşılayır, məlumatları rəvan bir dildə çatdırmaq bacarığına yiyələnməyə imkan verir.

## 4. Fənnin tədrisi nəticəsində əldə olunan kompetensiyalar

İnsan mədəniyyətinin ayrılmaz hissəsi olan nitq mədəniyyəti dil normalarının məcmusu kimi təzahür tapır. Hər bir insan elə danışmalı, nitqini elə qurmalıdır ki, dinləyicilər onu nəinki başa düşməli, həm də onun danışığına həvəslə qulaq asmalı, ondan həzz almalıdırlar.

Yüksək nitq mədəniyyətinə yiyələnmək üçün dilin lüğət tərkibinə dərindən bələdlik, onun fonetik, leksik-semantik, frazeoloji və qrammatik normalarına yiyələnmək, dil qanunlarını nitqdə düzgün tətbiq edə bilmək zəruridir.

Yeni insanın tərbiyəsi üçün ədəbi dilin, dil mədəniyyətinin, bir sözlə, nitq mədəniyyətinin inkişaf etdirilməsinin böyük əhəmiyyəti var.

## 5. Fənnin xarakteristikası

### Fənnin öyrənilməsinin təqvim planı

| Sıra №si | Bölmə. Dərsin mövzusu | Saat | Dərsin növü |
|---|---|---|---|
| 1 | Dilin mahiyyəti: dilin ictimailiyi, dilin funksiyaları. | 2 | Dərs-məşğələ |
| 2 | Azərbaycan dili haqqında məlumat | 2 | Dərs-məşğələ |

| | | | |
|---|---|---|---|
| 3 | Azərbaycan əlifbasının tarixi inkişaf yolu. Yazı | 2 | Dərs-məşğələ |
| 4 | Azərbaycan dili və nitq mədəniyyəti fənninin məqsəd və vəzifələri.Nitq mədəniyyətinin müxtəlif elmlərlə əlaqəsi | 2 | Dərs-məşğələ |
| 5 | Ritorika.Ritorikanın tarixi | 2 | Dərs-məşğələ |
| 6 | Azərbaycan ritorları.Azərbaycan dili və nitq mədəniyyətinin inkişafında Heydər Əliyevin rolu | 2 | Dərs-məşğələ |
| 7 | Şifahi nitq vərdişlərinin möhkəmləndirilməsi | 2 | Dərs-məşğələ |
| 8 | Nitqin formaları: şifahi və yazılı | 2 | Dərs-məşğələ |
| 9 | Yazılı nitq və durğu işarələri | 2 | Dərs-məşğələ |
| 10 | Yazı vərdişlərində durğu işarələrinin rolu | 2 | Dərs-məşğələ |
| 11 | Monoloji və dialoji nitqin əsas xüsusiyyətləri | | Dərs-məşğələ |
| 12 | Nitqin keyfiyyətləri.<br>Natiqlik sənətinin sahələri. | 2 | Dərs-məşğələ |
| 13 | Şifahi nitqdə nitq etiketlərindən məqsədyönlü istifadə. Milli-mənəvi dəyərlər | 2 | Dərs-məşğələ |
| 14 | "Kitabi-Dədə Qorqud" dastanında milli-mənəvi dəyərlərimizi əks etdirən nümunələr | 2 | Dərs-məşğələ |
| 15 | Fonetika. Fonetik qanunlar və hadisələr | 2 | Dərs-məşğələ |
| 16 | Ədəbi dilin normaları.Fonetik norma | 2 | Dərs-məşğələ |
| 17 | Leksik norma və nitq mədəniyyəti | 2 | Dərs-məşğələ |
| 18 | Qrammatik normaların mədəni nitqdə rolu | 2 | Dərs-məşğələ |

| | | | |
|---|---|---|---|
| 19 | Esse | 2 | Dərs-məşğələ |
| 20 | Sözün mahiyyəti, məna və keyfiyyətləri. Şair və mütəfəkkirlərin söz və kəlam-dil haqqında mülahizələri | 2 | Dərs-məşğələ |
| 21 | Leksikologiya | 2 | Dərs-məşğələ |
| 22 | Leksikoqrafiya. | 2 | Dərs-məşğələ |
| 23 | Frazeologiya | 2 | Dərs-məşğələ |
| 24 | Əsl Azərbaycan sözləri və alınma sözlər | 2 | Dərs-məşğələ |
| 25 | Ümumişlək və ümumişlək olmayan sözlər. | 2 | Dərs-məşğələ |
| 26 | Şifahi nitq vərdişlərinin möhkəmləndirilməsi | 2 | Dərs-məşğələ |
| 27 | Morfologiya qrammatikanın bir hissəsi kimi.Əsas nitq hissələri | 2 | Dərs-məşğələ |
| 28 | Köməkçi nitq hissələri | 2 | Dərs-məşğələ |
| 29 | Bədii nümunələr üzərində iş | 2 | Dərs-məşğələ |
| 30 | Sintaksis. Söz birləşmələri. | 2 | Dərs-məşğələ |
| 31 | Cümlə.Cümlənin məqsəd və intonasiyaya görə növləri | 2 | Dərs-məşğələ |
| 32 | Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər. | 2 | Dərs-məşğələ |
| 33 | Üslub və üslubiyyat anlayışı Azərbaycan dilinin funksional üslubları | 2 | Dərs-məşğələ |
| 34 | Bədii üslub | 2 | Dərs-məşğələ |
| 35 | Bədii ədəbiyyat nümunələrindən parçalar | 2 | Dərs-məşğələ |
| 36 | Elmi üslub | 2 | Dərs-məşğələ |
| 37 | Publisistik üslub | 2 | Dərs-məşğələ |
| 38 | Rəsmi- kargüzarlıq üslub. | 2 | Dərs-məşğələ |

| | | | |
|---|---|---|---|
| 39 | Əməli yazı növləri | 2 | Dərs-məşğələ |
| 40 | Epistolyar üslub. Məktublaşma. | 2 | Dərs-məşğələ |
| 41 | Məişət üslubu (nitqin sərbəstliyi, təbiiliyi, yığcamlığı). | 2 | Dərs-məşğələ |
| 42 | Danışıq etikası | 2 | Dərs-məşğələ |
| 43 | Şifahi nitqdə istifadə olunan vasitələr (tembr, intonasiya,mimika) | 2 | Dərs-məşğələ |
| 44 | Nitqin mədəni və qeyri-mədəni halları | 2 | Dərs-məşğələ |
| 45 | Nitqin tərzi (vasitəli və vasitəsiz nitq) | 2 | Dərs-məşğələ |

## 6. Fənn üzrə sərbəst işlərin mövzuları

Fənn üzrə semestr ərzində hər tələbəyə 1(bir) sərbəst iş tapşırığı verilir. Hər tapşırığın yerinə yetirilməsi 0-10 balla qiymətləndirilir.

| № | Mövzular |
|---|---|
| 1 | . Dilin mahiyyəti: dilin ictimailiyi, dilin funksiyaları. |
| 2 | Azərbaycan dili haqqında məlumat |
| 3 | Azərbaycan dili və nitq mədəniyyətinin inkişafında Heydər Əliyevin rolu |
| 4 | Azərbaycan ritorları |
| 5 | Fonetik hadisələr |
| 6 | Ədəbi dilin normaları. |
| 7 | Frazeologiya. |
| 8 | Ümumişlək və ümumişlək olmayan sözlər. |
| 9 | Ritorikanın tarixi |
| 10 | Kitabi-Dədə Qorqud eposunda milli əxlaqi dəyərlər haqqında |
| 11 | Monoloji və dialoji nitq |
| 12 | Klassiklərimizin əsərlərində milli-mənəvi dəyərlər haqqında |
| 13 | Şair və mütəfəkkirlərin söz və kəlam-dil haqqında mülahizələri |
| 14 | Bədii üslub |

| | |
|---|---|
| 15 | Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər. |

Sərbəst iş yazılı formada, word faylı formasında, həcmi sərbəstdir, (şrift 12) olmalıdır.
Hər bir sərbəst iş tələbənin fərdi fikirlərinin məcmusu olduğuna görə **plagiat** yol verilməzdir.

**7. Tələbənin nailiyyətlərinin cari və aralıq qiymətləndirilməsi**

Fənn üzrə krediti toplamaq üçün lazımi balın toplanması aşağıdakı kimi olacaq:

- 50 bal – imtahana qədərki bal;
- 10 bal dərslərə davamiyyətə görə (fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbə həmin fəndən imtahana buraxılmır);
- 10 bal tələbənin sərbəst işinə görə;
- 30 bal laboratoriya dərslərinin nəticələrinə görə (fənn üzrə kurs işi və məşğələ dərsi nəzərdə tutulmadığı halda).

**8. Təhsilalma prosesinə nəzarət və tələbənin biliyinin yekun qiymətləndirilməsi**

Tələbənin biliyinin yekun qiymətləndirilməsi imtahan zamanı 50 bal və imtahana qədər 50 bal toplanan ballar cəmi 100 bala bərabərdir. Yekun bal aşağıdakı kimi qiymətləndirilir:

A – “Əla” - 91 – 100
B – “Çox yaxşı” - 81 – 90
C – “Yaxşı” - 71 – 80
D – “Kafi” - 61 – 70
E – “Qənaətbəxş” - 51 – 60
F – “Qeyri-kafi” - 51 baldan aşağı

Yekun qiymətləndirmə 51 bal və ondan yuxarı bal toplayan tələbə fənn üzrə müəyyən olunmuş krediti qazanır və müvəffəqiyyət qazanan tələbə, 51 baldan aşağı bal toplayan tələbə isə həmin fəndən krediti qazanmır və akademik borcu olan tələbə adlanır.

**9. İstifadə olunan ədəbiyyat :**


1. Akif Bayramov, Ziyəddin Məhərrəmov, Mustafa İsgəndərzadə. “Azərbaycan dili və nitq mədəniyyəti”
2. Adil Babayev “Azərbaycan dili və nitq mədəniyyəti” Bakı,2008
3. Məmmədova Pərvanə “Nitq mədəniyyəti problemləri”(dərs vəsaiti) Bakı,”Ecoprint”,2020,120s.
4. Aynurə Məmmədzadə.Müasir Azərbaycan ədəbi dilinin üslublar sistemi və məcazlar.Dərs vəsaiti,Bakı,2020-76s.
5. Afat Qurbanov. “Ümumi dilçilik”


- Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri elektron formada kollecin saytında yerləşdirilib.
-

**10.Tələbənin nizam-intizamına qoyulan tələblər**

- Pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;
- Təhsil müəssisəsinin nizamnaməsinə uyğun olaraq ictimai asayiş və daxili intizam, davranış qaydalarının tələblərinə riayət etmək;
- Auditoriya daxili təlim məşğələlərində iştirak etmək, müvafiq tədris planlarında vəkursların işçi proqramlarında nəzərdə tutulmuş bütün növ tapşırıqları müəyyən edilmiş dövrlərdə yerinə yetirmək;
- Kollecin otaqlarına, tədris-laboratoriya avadanlığına, cihazlara, dərs vəsaitlərinə, kitablarına və digər əmlakına qayğı və səliqə ilə yanaşmaq, onların korlanmasına, zədələnməsinə və itməsinə yol verməmək, otaqlarında onların təmizliyə və səliqəyə riayət etmək.